Ədəbiyyat QƏZETİ №9 7 mart 2025-ci il 

# Şövkət Zərin Horovlunun "Axırıncı gediş" kitabı təqdim olundu



Bu günlərdə AYB-nin Natəvan klubunda tanınmış yazıçı Şövkət Zərin Horovlunun "Axırıncı gediş" kitabının təqdimat mərasimi keçirildi.

Tədbiri Yazıçılar Birliyinin katibi Elçin Hüseynbəyli açaraq Şövkət xanımın çoxşaxəli yaradıcılığı barədə əhatəli məlumat verdi.

Filologiya elmləri doktoru, tənqidçi Vaqif Yusifli əhatəli məruzəsində diqqətə çatdırdı ki, "Axırıncı gediş" olduqca maraqlı tarixi romandır. "Müəllifin təsvir etdiyi hadisələr, tarixi şəxsiyyətlər, zaman və məkan koordinatları bu fikri deməyə imkan verir. Əsərdə təsvir edilən obrazların hər birinin azadlıq hərəkatında xüsusi rolu var. Romanda usta Cəlaləddinin azadlıq sevənlərin yığıncağında söylədiyi fikirlər, əslində, əsərin ideyasını, bu ideya ətrafında birləşən insanların kredosunu tamamilə və doğru səciyyələndirir..."

Tənqidçi Əsəd Cahangir əhatəli çıxışında Ş.Z.Horovlunun zəngin yaradıcılığına peşəkarlıqla nüfuz etdi, yetərincə incələdi və onun müxtəlif janrlarda qələmə aldığı əsərlərin bədii cəhətləri üzərində dayandı.

Şair-publisist Sərvaz Hüseynoğlu dedi: "Axırıncı gediş" zülmə, istilaya qarşı mübarizəyə, dözümə səfərbər edir oxucularını. Doğma Qarabağ torpaqlarımız uğrunda haq savaşımızın qalibiyyətlə nəticələnməsində bu cür əsərlərin müstəsna yeri var. "Axırıncı gediş" tarixi, milli kimliyimizə dəyər qatan şəxsiyyətlərin ömür yolunu anladır oxucuya. Sədaqət, vəfadarlıq duyğusunun zərif, kövrək təsviri oxucu düşüncəsini bətləyib-bələyir. Bütün hallarda iradə, yenilməzlik əzminin tərənnümü önə çıxır...

Professor Maarifə Hacıyeva Şövkət xanımdan vəfalı yurddaş kimi söz açdı, davamlı şəkildə Qarabağ mövzusuna, milli mücadilə tariximizə müraciət etməsini təqdir etdi.

Yazıçı-publisist Zemfira Məhərrəmli vurğuladı ki, "Axırıncı gediş" əslində mübarizə, eyni zamanda əsl həyat romanıdır. Yurdumuzun, zaman-zaman ağır basqılara məruz qalmış insanlarımızın mühacir həyatı bu əsərdə dərin vətəndaş-yazıçı təəssübkeşliyilə qələmə alınıb.

Ədəbiyyatşünas alim Mənzər Niyari diqqətə çatdırdı ki, "Şövkət xanımın yaradıcılığı özəl olaraq mənə çox əzizdir. Onun təsvir etdiyi hadisələrin çoxu mənim valideynlərimin həyat hekayələri kimidir. "Axırıncı gediş"də mənim öz doğma ata-anamın tale yaşantıları var..."

Yazıçı və şairlərdən Nəzakət Məmmədli, Rafael Tağızadə, Məmməd Tahir, Şakir Albalıyev, Tariel Abbaslı, Nafilə, Arzu Nehrəmli, Zərəngiz Dəmirçioğlu, Şəmsiyyə Kərimova, Adilə Aslanova və başqaları çıxış edərək "Axırıncı gediş"in bədii məziyyətlərindən söz açdılar.

Sonda Şövkət Zərin Horovlu tədbirin keçirilməsinə yaratdığı şəraitə görə AYB rəhbərliyinə təşəkkür etdi və yeni şeirlərindən nümunələr səsləndirdi.

*Sərvaz*